Təhsil Nazirliyinin Həmkarlar İttifaqının təşkilatçılığı ilə Nazirliyin əməkdaşları arasında 28 May – Müstəqillik Gününə həsr olunmuş futbol turniri keçirilib.

Təhsil Nazirliyinin aparatının və tabe qurumların əməkdaşlarının iştirakı ilə 10 komandanın mübarizə apardığı yarışların nəticələrinə görə, Təhsil İnstitutunun “ARTİ” komandası I yerə, Nazirliyin aparatının əməkdaşlarından ibarət “Daxili nəzarət” və “ALL STAR” komandaları müvafiq olaraq II və III yerlərə layiq görülüblər.

Qaliblər Təhsil Nazirliyinin Həmkarlar İttifaqı tərəfindən mükafatlandırılıb.

Qeyd edək ki, futbol turnirinin keçirilməsində məqsəd əməkdaşlar arasında komanda ruhunu gücləndirmək, onların asudə vaxtını birlikdə səmərəli təşkil etmək və sağlam həyat tərzinə istiqamətləndirməkdən ibarətdir.